

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

29 iyul 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 28 (3541)


# YENİ YÜKSƏLİŞ VƏ QURUCULUQ YOLUNDA

## *Dövlətin əsas hədəflərindən biri əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır*

Ötən il torpaqlarımızın işğaldan azad edilməsi qədim tariximizin səhifələrinə yeni nailiyyətlərin yazılmasına, yüksəlişin və quruculuğun növbəti mərhələsinin başlanmasına vəsilə oldu. Bu gün artıq Qarabağda sürətlə infrastruktur layihələri həyata keçirilir, eyni zamanda, sosial-iqtisadi sferada müsbət göstəricilər əldə olunur.

Dövlət başçısının bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə müvafiq sərəncamların verilməsi ölkəmizin regionlarının davamlı inkişafında mühüm rol oynayır. Bu səfərlər regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında nəzərdə tutulan işlərin icrası ilə yerində tanış olmaq baxımından da mühüm əhəmiyyət kəsb edir.



Prezident İlham Əliyevin bugünlərdə Daşkəsənə, Naftalana və Goranboya səfəri çərçivəsində açılışını etdiyi obyektlər də ölkəmizdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı siyasətin növbəti bariz göstəricisi oldu. Dövlət başçısının xeyir-duası ilə istifadəyə verilən obyektlər, infrastruktur təsisatları qeyri-neft sektorunun inkişafında xüsusi yer tutur. Regionların kənd təsərrüfatı, turizm, dağ-mədən sənayesi və digər sahələr üzrə potensialı günü-gündən artır və bu imkanlardan səmərəli istifadə olunması iqtisadiyyatımızın neft sektorundan asılılığını minimuma endirməklə dayanıqlı inkişafı təmin edir.

Dövlətimizin başçısı bir neçə gün əvvəl Azərbaycan Televiziyasına müsahibəsində də məhz bu dayanıqlı inkişafa istinad edirdi. Cari ilin ötən altı ayı ərzində ölkəmizin sosial-iqtisadi yekunları ilə bağlı göstəricilərə diqqət çəkən Prezident bildirib ki, qeyri-neft sektoru 5 faizdən çox, qeyri-neft sənayesi 16,6 faiz yüksəlib. Bütün bunlarla bərabər, bu dövrdə valyuta ehtiyatları 1 milyard dollar həcmində artıb. Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu isə xarici dövlət borcunu istənilən vaxt sıfırlamağa imkan verir.

Ölkəmizin rəhbəri müsahibəsində digər mühüm məqamlara da toxunub, işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, Şərqi Zəngəzurun və Qarabağın yenidən dirçəldilməsi istiqamətində görülən işlər barədə ölkə ictimaiyyətinə ətraflı məlumat verib.

Müxtəlif səviyyələrdə gündəmə gətirilməyə çalışılan Qarabağda yaşayan ermənilərin statusu məsələsi ilə bağlı qəti mövqeyini bir daha bəyan edən Prezident İlham Əliyev artıq tarixi ədalətin bərpa olunduğunu, Xankəndində yaşayanların real sayının 25 min nəfəri keçmədiyini bildirib. “25 min insan üçün status yaratmaq hansı məntiqə sığır? Mən sual verirəm. Bu gün Fransada və Amerikada bu məsələ ilə bağlı reallığı əks etdirməyən bəyanatlar səslənəndə haqlı olaraq Azərbaycan xalqı bundan narazı olur ki, münaqişə öz həllini tapmalıdır”,-deyən dövlətimizin başçısı xüsusilə vurğulayıb ki, “Mən bu məsələni həll etmişəm, vəssalam! Dağlıq Qarabağ yoxdur, status yoxdur!”

Beləliklə, qeyd edə bilərik ki, Prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri və bu səfər zamanı Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər yeni geosiyasi reallığı, rəqəmlər isə yeni iqtisadi gerçəkliyi bir daha təsdiq etdi.

# QARDAŞLIQ MÜNASİBƏTLƏRİ MÖHKƏMLƏNİR

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 27-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb və ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyini qeyd edib. O, həmçinin başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət etdiyini diqqətə çatdırıb, Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğunu da vurğulayıb.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Bildirilib ki, Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşü bu üç ölkə arasında qardaşlıq əlaqələrinin və birliyinin nümayişidir. Görüşdə buna bariz nümunə kimi həm Türkiyə, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana dəstəyi də qeyd edilib.

Söhbət zamanı o da bildirilib ki, üç ölkə arasında əməkdaşlıq Avrasiyada geniş mənada yeni işbirliyi çərçivələrini də formalaşdırır.

Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

# Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə məlumatı

İyulun 27-də narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı daxil olmuş əməliyyat məlumatı əsasında 1982-ci il təvəllüdlü, əvvəllər Cinayət Məcəlləsinin narkotiklərlə əlaqəli və qaçaqmalçılıq maddələri ilə məhkum olunmuş Müseyib Ələsgərovun paytaxtın Yasamal rayonu ərazisində idarə etdiyi avtomaşın saxlanılarkən o, polis əməkdaşlarına təbesizlik göstərərək qaçmağa cəhd göstərib. Bu zaman üzərində olan qumbara partlamış, nəticədə M.Ələsgərov ölmüşdür.

Avtomaşında olan sərnişin, əvvəllər soyğunçuluq cinayətinə görə məhkum olunmuş 1993-cü il təvəllüdlü Elman Qurbanov isə qaçarkən saxlanılıb. Şəxsi axtarış zamanı ondan külli miqdarda narkotik vasitə aşkar olunaraq götürülüb.

Partlayış zamanı 4 polis əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Avtomaşına baxış keçirilərkən əlavə silah-sursat aşkarlanıb.

Faktla bağlı Yasamal rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, hazırda iş üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Rəsmi xronika

***İyulun 25-də Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı iyulun 26-da Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin rəhbəri iyulun 26-da Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Allahyar oğlu Quliyevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***İyulun 27-də dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin rəhbəri iyulun 27-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeyserin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

# İCTİMAİ ŞURADAN GÖZLƏNTİLƏR

## Onlar cəmiyyəti narahat edən problemlərin həllində öndə olmalıdırlar

**Polislə cəmiyyət arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaşların iştirak səviyyəsinin yüksəldilməsi məqsədilə Daxili İşlər Nazirliyi yanında yaradılmış İctimai Şuranın yeni üzvləri ilə artıq əməli addımlar atılmağa başlanılıb. Elə bugünlərdə Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın iclası keçirilib. İclasda iştirak edən daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev İctimai Şura üzvlərinə vəsiqələr təqdim edib.**




Daxili İşlər Nazirliyinin son dövrlərdə gördüyü işlər, xüsusilə də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı həyata keçirilən uğurlu əməliyyatlar barədə geniş məlumat verən nazir müavini İctimai Şura üzvlərinin rəy və təkliflərini dinləyib, qaldırılan məsələlərin hər birinin ciddi şəkildə araşdırılacağını vurğulayıb.

Bundan başqa, iclasda bir sıra vacib məsələlər barədə qərarlar qəbul olunub.

Hər ilin hesabat dövründə üstü açılan cinayətlərlə bağlı səsləndirilən statistik rəqəmlər, əslində, vətəndaşların polislə işbirliyinin



göstəricisi, həm də polislə cəmiyyət arasında əlaqələrin qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin qarşılıqlı etimad formasında təzahürüdür.

Bunun nəticəsidir ki, bu gün cəmiyyət polisi əmin-amanlığı, təhlükəsizliyi, sakit həyat tərzini qoruyan əsas sipər kimi görür. Ancaq dəyişən dünyanın tələbləri cəmiyyətlə münasibətlərin daha da yüksəldilməsini diktə edir və bu zaman ictimai şuralar kimi təsisatlar köməyə yetir. Bu baxımdan DİN yanında İctimai Şuradan həm polisin, həm də cəmiyyətin gözləntiləri böyükdür. Onlara təqdim edilən vəsiqələr də iftixar doğurmaqla yanaşı, üzərlərinə cəmiyyətin və polisin gözləntilərini doğrultmaq öhdəliyi qoyur.

**Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın sədr müavini, "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova** hesab edir ki, Şura üzvləri peşəkar qurum rəhbərləri və mütəxəssislərdən ibarət olduğuna görə bu gözləntiləri doğrultmaq, polislə cəmiyyət arasında qarşılıqlı inam hissini artırmaq çətin olmayacaq. Onun sözlərinə görə, Şura kriminal meyillərə qarşı polisə daha ciddi ictimai dəstək vermək məqsədilə qarşıdakı günlərdə silsilə maarifləndirici tədbirlərə start verməyi planlaşdırır. Xüsusən, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə birgə mübarizə prioritet olacaq: "Biz bu məsələ ilə bağlı Şura adından bir neçə bəyanatla çıxış edəcəyik. Əminəm ki, qarşımızda duran vəzifələri həyata keçirmək üçün DİN yanında İctimai Şura digər qurumlarda yaradılan şuralardan daha aktiv və məhsuldar fəaliyyət göstərəcək.",- deyə Mahirə Əmirhüseynova bildirib.

Şurada təmsil olunan **"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalovanın** qənaəti isə belədir ki, Şura cəmiyyətdə, ictimaiyyətdə narahatlıq doğuran və həllini gözləyən problemlərlə məşğul olmalıdır. Məsələn, məişət zorakılığı ilə bağlı ictimai müzakirələr aparılmalı, polis orqanlarına konkret təkliflər verilməlidir. Onun sözlərinə görə, polis insan alverinə qarşı mübarizədə böyük uğur əldə edib və məişət zorakılığı ilə bağlı da ciddi dəyişikliyə nail ola bilər. O, hesab edir ki, şuranın da iclasında təklif etdiyi kimi, polis idarələrində məişət zorakılığı ilə bağlı müraciətləri araşdıran ayrıca əməkdaşlar olmalıdır. Onun sədrlik etdiyi qurum bununla bağlı təlimlər də keçirə bilər: "Biz yeni bir layihə ilə bağlı artıq Daxili İşlər Nazirliyinə müraciət etmişik. Bu narkotik istifadəçiləri arasında qadınların artması ilə bağlıdır. O qadınların həyatını əks etdirən foto və videolar əsasında narkomaniya dəhşətlərini ictimaiyyətə çatdırmağı hədəfləyirik".

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# ŞƏHİD QARDAŞIN ARZUSU

## "Əgər şəhid olsam elə edin ki, bütün Azərbaycan məni tanısın"



**"Bəlkə də sizə qəribə gələr, ikinci Qarabağ Müharibəsinin şəhidi İbrahimin arzusunu yerinə yetirmək üçün sizə zəng etmişəm. Mən Binəqədi RPİ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis serjantıyam. Adım İbrahim Vüqardır. Qardaşım cəbhədə olanda bizə tapşırmışdı ki, əyər şəhid olsa, elə edək ki, onu bütün Azərbaycan tanısın. Şəhidlərimiz bizim and yerimiz, qürurumuzdur. Onları bu gün kiçikdən-böyüyə hamı tanıyır. İstədim ki, qardaşımı sıralarında fəxrlə xidmət etdiyim DİO əməkdaşları da yaxından tanısınlar".**

Düzü, bu qəfil zəng və xəttin o başındakı şəxsin titrək səsi məni qəhərləndirdi. Araya çökən sükutu onun səsi çiliklədi: "Qardaşım 2013-cü ildə hərbi xidmətini başa vurduqdan sonra 2015-ci ildə Binəqədi Rayon Hərbi Komissarlığına müraciət etdi. 2016-cı ildə snayper kursunu keçib gizir rütbəsində Xüsusi Təyinatlı Qüvvələrin sıralarına qəbul olundu. Vətən müharibəsi başlayanda çox sevinirdi. Səbirsizliklə gözlədiyi arzusuna çatdığını, hətta şəhid olacağını da anama demişdi. Belə də oldu, İbrahim qəhrəmanlığı ilə tarix yazdı".

Öyrəndik ki, İbrahim Sadıqlı 2018-ci ildə dövlət xətti ilə Müdafiə Nazirliyi tərəfindən Çin Xalq Respublikasında beynəlxalq snayper kursuna göndərilib. 2019-cu ilin fevralında yüksək bilik və döyüş hazırlığı ilə fərqlənən qəhrəmanımız kursda 50 ölkə arasında birincilik qazanaraq bayrağımızı dalğalandırıb. O, Vətən savaşında - Murovdağ, Kəlbəcər, Ağdərə, Cəbrayıl və Füzuli uğrunda gedən döyüşlərdə düşmənin 60-a yaxın zabit və əsgər heyətini, bir-neçə zirehli texnikasını məhv edib.

Döyüş yoldaşları bildirir ki, İbrahim hər dəfə düşmənin canlı qüvvəsini məhv edərkən "Son nəfəsimə kimi sizdən Xocalının intiqamını alacağam" deyirmiş.

Ömrünün 27-ci baharını yaşayan igidimiz oktyabrın 3-də Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 4-də isə 2-ci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Ölümündən sonra o "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

İbrahim yağı düşmən üzərində Qələbəni görə bilməsə də, bu gün ruhu şaddır. Çünki uğrunda canını verdiyi yurd yerlərimiz azaddır. Həm də ən böyük arzusu da çin olub. İndi onu bütün Azərbaycanımız tanıyır, onunla fəxr edir.

Yeri gəlmişkən, həmkarımızın bu ilin yanvar ayında digər qardaşı da DİN rəhbərliyinə edilən müraciətdən sonra Binəqədi Rayon Mühafizə İdarəsinə xidmətə qəbul olunub.

**Sözardı:** *Şəhidimizin polis qardaşına niyə özünü İbrahim Vüqar Şahin oğlu kimi təqdim edirsən sualımıza cavabı belə oldu: "İbrahimin adını daşımaqdan qürur duyuram. Onun adını özümə ona görə soyad götürmüşəm ki, adımı çəkən hər kəs məni İbrahimlə bir çağırsın"...*





*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Profilaktik tədbirlər gücləndirilir



**Əməkdaşlarımız tərəfindən mütəmadi olaraq ictimai nəqliyyatda tibbi maskalardan istifadə etməyən şəxslərin aşkar edilməsi istiqamətində nəzarət-profilaktik tədbirlər həyata keçirilir.** Tədbirlər zamanı sərnişinlərlə izahedici söhbətlər aparılır, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyin zəruriliyi diqqətə çatdırılır. İctimai nəqliyyat vasitələrində maskadan istifadə etməyən sərnişinlər barəsində inzibati tənbeh tədbirləri görülür.

Qeyd edək ki, taksilərdə şəffaf arakəsmələr quraşdırmayan sürücülər, eləcə də, avtomobilin ön oturacağında əyləşən və tibbi maskadan istifadə etməyən sərnişinlər barədə də qanunauyğun tədbirlər həyata keçirilir.

Karantin qaydalarına əməl olunmasına nəzarəti gücləndirmək məqsədilə ictimai nəqliyyatda, şadlıq evləri və digər qapalı məkanlarda polis əməkdaşları tərəfindən profilaktik tədbirlər bundan sonra da davam etdiriləcək.

*R.Əliyeva*



# Polisdən qaça bilmədilər

Paytaxtın Binəqədi rayonunda avtomobillərdən maqnitafonları və digər qiymətli əşyaları oğurlayan şəxs saxlanılıb. **Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinin** əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat zamanı əvvəllər məhkum olunmuş Orxan Soltanov tutulub. Araşdırma zamanı onun bu ilin əvvəlindən saxlanılan günə qədər Binəqədi rayonu ərazisində 13 avtomobildən oğurluq etdiyi məlum olub. Orxan Soltanovun törətdiyi oğurluqların bəziləri ərazidə olan müşahidə kameraları vasitəsi ilə lentə alınıb.

Bölmə əməkdaşlarının həyata keçirdikləri digər əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində narkotik vasitələrin və psixotrop maddə olan metamfetaminin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan Samir Ağabalayev saxlanılıb. Onun üzərinə baxış zamanı külli miqdarda heroin, metamfetamin, metadon həbləri və elektron tərəzi aşkar edilib. O, ifadəsində narkotik vasitələrin satışı ilə məşğul olduğunu etiraf edib.

*****

**Abşeron Rayon Polis İdarəsinin Qobu Polis Bölməsinin** əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, həmçinin, narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyat həyata keçirilib.

Belə ki, Polis Bölməsinə əvvəllər məhkum olunmuş Pirəli İmamcanovun Hökməli qəsəbəsində yaşadığı evin həyətində çətənə bitkilərini əkib-becərdiyi, həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirdiyi barədə əməliyyat məlumatı daxil olub. Dərhal həmin ünvana baxış keçirilib. Baxış zamanı Pirəli İmamcanovun həyətində xüsusi qulluq edərək yetişdirdiyi ümumi çəkisi 28 kiloqram olan 39 ədəd çətənə bitkisi, 200 qram marixuana aşkar edilib. Saxlanılan şəxs ifadəsində narkotik tərkibli bitkiləri bu ilin aprel ayında əkdiyini və xüsusi qulluq etdiyini bildirib.

# Poçtumuzdan...

**Cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi və asayişin qorunması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, həmçinin qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi hər bir polis əməkdaşının vəzifə borcudur. Bütün bunlarla yanaşı vətəndaşların qəbulu, onlar tərəfindən edilən müraciətlərin araşdırılması, hətta polisə aid olmayanların aidiyyati üzrə istiqamətləndirilməsi də nüfuzumuzun yüksəlməsinə təsirsiz ötüşmür.**

Odur ki, xidmətimiz vətəndaşlar tərəfindən qiymətləndirilir. Onlar nəinki məktubla, həmçinin sosial şəbəkə üzərindən ünvanımıza minnətdarlıqlarını, təşəkkürlərini yazırlar.

**Bakı şəhər sakini Emin Məmmədov** veteranlar adından DİN-ə ünvanladığı məktubda onlara göstərilən diqqətə və qayğıya görə DİN rəhbərliyinə minnətdarlıq edir. Yazır ki, “Vaxtilə polisin sıralarında xidmət etmiş veteranlarımıza hər zaman olduğu kimi, bu gün də qayğı göstərilir. Çox sevinirik ki, bu gün gənc əməkdaşlar bizim təcrübəmizdən yararlanırlar. Biz veteranlar bundan sonra da öz bilik və təcrübəmizi cinayətkarlığa qarşı mübarizəyə, ictimai təhlükəsizliyin təmin olunmasına sərf edəcəyik”.

**Bakı şəhər sakini Pərvanə Səlimova** isə məktubunda dələduzluq yolu ilə ondan pul almış şəxs barədə Sabunçu Rayon Polis İdarəsinə ərizə ilə müraciət etdiyini, məsələnin qısa zaman kəsiyində öz həllini tapdığını və ona dəymiş maddi ziyan ödətdirildiyini yazır. Ona göstərilən köməkliyə və müraciətinin tez bir zamanda həll olunmasına görə DİN rəhbərliyinə dərin minnətdarlığını bildirir.

**DİN-nin instaqram izləyicisi** tərəfindən ünvanlanan müraciətdə deyilir: “Son günlər gənclərimiz arasında narkotik vasitələrin geniş yayılmasından çox narahatıq. Uşaqlarımızı qorumağın yolunu polislərimizlə bərabər bu bəlanı yayanlara qarşı mübarizədə görürük. Elə bu məsələ ilə bağlı sizə etdiyim müraciətdən dərhal sonra mənimlə əlaqə saxlanıldı və şikayətim tez bir zamanda həll olundu. Narkotik vasitələrin qarşısının alınması istiqamətində aparılan qətiyyətli mübarizəyə görə DİN rəhbərliyinə təşəkkürümü bildirirəm”.

Digər izləyicimiz tərəfindən ünvanlanan müraciətdə isə deyilir ki, gənc və yeniyetmələr arasında təbliğ olunan və gün-gündən daha şox yayılmağa başlayan “patı” və “şüşə” adlı narkotik vasitələrin satışından hər bir vətəndaş kimi, o da çox narahatlıq hissi keçirir. “Gələcəyimiz olan uşaqlarımızın belə bir bəlaya düçar olması ürəkağrıdıcıdır. Mən də DİN-nin sosial şəbəkələr vasitəsilə vətəndaşlara etdiyi müraciətə əsasən Nəsimi RPİ-nin 21-ci Polis Bölməsinə müraciət edib onlardan kömək istədim. Tez bir zamanda müraciətimə reaksiya verildi. Sevindirici haldır ki, bu gün DİO əməkdaşları üzərinə düşən vəzifələri lazımi səviyyədə yerinə yetirməklə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün tədbirlər görür və müsbət nəticələr də göz qabağındadır”

Yeri gəlmişkən, onu da qeyd edək ki, DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki hesablarına vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında çoxsaylı əməliyyatlar keçirilib. Əməliyyatlar zamanı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısı alınıb, bu işlə məşğul olanlar isə istintaqa cəlb olunublar.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Monitorinqlər davam etdirilir



Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində iyulun 26-da 190, iyulun 27-də 295 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 4 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib, 203 nəfər cərimə olunub, 3 şəxs barədə materiallar baxılması üçün məhkəməyə göndərilib.

# “Sınıq pəncərə” nəzəriyyəsi

**"Əgər hər hansısa binada bir şüşə qırılırsa və heç kim onu yenisi ilə əvəz etmirsə, bir müddət sonra həmin binada digər pəncərələr də zamanla sıradan çıxacaq”.** Amerikalı sosioloqlar Ceyms Uilson və Corc Kellinqin gəldiyi bu qənaət 1982-ci ildə “The Atlantic Monthly” jurnalında yayımlanıb. “Sınıq pəncərə” xırda cinayətləri yalnız kriminogen vəziyyətin göstəricisi kimi deyil, ümumilikdə cinayət nisbətinə təsir göstərən bir faktor kimi qəbul edən kriminoloji nəzəriyyədir. Yəni nəzəriyyənin ümumi mahiyyəti beledir ki, kiminsə qanunsuz əməli cəzasız qaldıqda, yaxud nəticələr aradan qaldırılmadıqda, belə hallar sürətlə kütləviləşir, başqa fərdləri də həmin və ya digər qayda pozuntularına sövq edir. Nəzəriyyədə qeyd olunur ki, hüquq mühafizə orqanları, yaxud da cəmiyyət kiçik qanun pozuntularına, məsələn, zibilin müəyyən olunmayan yerlərə atılmasına, vandalizmə, kütləvi sərxoşluğa, metrodakı turniketlərdən tullanmağa və sair hallara göz yumursa və bu cəzasız qalırsa, o zaman daha ciddi qanun pozuntuları meydana çıxır, fəsadlarının aradan qaldırılması çətinləşir.



Cəzasızlığı məişət səviyyəsində psixoloji mexanizm kimi belə təsvir etmək olar: "Əgər başqalarına icazə verilirsə və o, cəzalanmırsa, mən niyə etməyim?"

Deməli, fərd görəndə ki, cəmiyyətin digər üzvləri tərəfindən davranış qaydalarının pozulması cəzasız qalır, bu zaman o qəbul olunmuş qaydaları özü üçün məcburi hesab etmir. Eyni zamanda, bu cür pozuntulara laqeyd yanaşan cəmiyyətdə "pozuntuların qəbul edilməsi" gec-tez ağır cinayətlərin sayının artmasına səbəb olur.

Bir zamanlar Nyu-Yorkun polis komissarı vəzifələrində çalışmış, daha sonra Boston və Los-Anceles Polis İdarələrinin rəisi olmuş Uilliyam Josef Brattonun “sınıq pəncərə” nəzəriyyəsinin xidmətdə istifadə etməsi 1990-cı illərin sonlarında Nyu-Yorkda cinayətlərin digər illərlə müqayisədə xeyli azalmasına səbəb olmuşdur.

1993-cü ildə isə Nyu-Yorkun meri olmuş Rudolf Djuliani də cinayətkarlıqla mübarizə kampaniyasında “sınıq pəncərə”ni tətbiq etmişdir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Kursantımızın uğuru







**Bu ilin aprelində Rusiya Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Omsk Akademiyasında kursantların, dinləyicilərin və tələbələrin qatıldığı “İnsan. Cəmiyyət. Qanun” adlı onlayn formatda beynəlxalq elmi konfrans keçirilmişdir.**

Beynəlxalq elmi konfransda Rusiyanın, Qazaxıstanın, Belarus Respublikasının və Azərbaycanın ali təhsil müəssisələrinin kursantları, dinləyiciləri və tələbələri iştirak etmişlər.

Konfrans iştirakçıları “Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti”, "Maliyyə və sahibkarlıq sahəsində inzibati məsuliyyət", "Cinayət hüququnun aktual məsələləri", "Həbs şəklində cəzanın icrası problemləri" bölmələri üzrə bilik və bacarıqlarını nümayiş etdiriblər.

DİN Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya nəşriyyat şöbəsinin rəisi, polis polkovniki Hikmət Eyvazovun “Polis”ə verdiyi məlumata görə, DİN Polis Akademiyasının “DİO-da əməliyyat-axtarış fəaliyyəti” kafedrasının müəllimi Eldar İsmayılovun elmi rəhbər olduğu IV kurs kursantı Tural Səfiyev konfransda “Daxili işlər orqanlarının əməliyyat-axtarış fəaliyyəti” bölməsi üzrə 20-dən çox iştirakçının nəticələrinin qiymətləndirilməsinə görə 1-ci yeri tutaraq diploma layiq görülüb.

Bu münasibətlə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Omsk Akademiyasının rəisi, polis general-mayoru S.K.Buryakov kursantımızın əldə etdiyi uğura və konfransda iştirakına görə azərbaycanlı həmkarlarına minnətdarlıq məktubu ünvanlamışdır.

*“Polis”*

# Yüzə nə qaldı...

***Təqaüddə olan polis mayoru Vaqif Əhmədovun 70 yaşı tamam oldu. Onu təbrik etmək üçün yubiley sevincini dost sözünə çevirməyi özümüzə borc bildik. Düzü, bəlkə də bundan xəbəri olsaydı həmişə olduğu kimi “Hələ görüləsi işlər şoxdur”,- deyib bizi fikrimizdən döndərməyə çalışacaqdı.***



Qocaman həmkarımız 1951-ci il iyulun 24-də Şəki şəhərində dünyaya göz açıb. Ailənin böyük övladı olduğu üçün elə kiçik yaşlarından alnı tər, əli qabar görüb. Uşaqlığı kədərin bol, sevincin qıt olduğu illərə təsadüf edib. Yəqin ki, çoxuşaqlı ailədə, özü də müharibədən sonrakı illərdə doğulanlar ilk sözün çörək olduğunu yaxşı xatırlayırlar.

Ehtiyacın ölümdən qorxulu olduğunu hər addımda hiss edib. Orta təhsilini Şəki şəhər 12 saylı orta məktəbdə başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Ordu sıralarından 1971-ci ildə tərxis olunduqdan sonra kənd təsərrüfatı texnikumunda təhsil alıb. Bir çox vəzifələrdə çalışsa da polis olmaq arzusu ilə 1980-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə daxil olur və burada təhsilini müvəffəqiyyətlə başa vurur.

O, Şəki və Zaqatala Rayon Polis Şöbələrində baş inspektor, bölmə rəisi kimi məsul vəzifələrdə çalışıb. İşlədiyi müddət ərzində təbeçiliyində xidmət aparan əməkdaşlara qarşı tələbkar olmaqla yanaşı diqqət və qayğısını da onlardan əsirgəməyib. Həmçinin, vətəndaşların müraciətlərinin vaxtında həll olunması onun işinin əsas meyarını təşkil edib.

Xidmətdə olduğu 32 ildən artıq bir dövrdə özünə də gün ağlayıb, özgələrə də əl tutub. Birinci Qarabağ müharibəsində digər həmkarları kimi Vaqif müəllim də silaha sarılıb, Vətənin müdafiəsi uğrunda gedən döyüşlərə qatılıb.

Ancaq özünün təbirincə desək onun bacara bilmədiyini oğlu bacarıb. Oğlu Anar Əhmədov ötən ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsinin iştirakçısı olub. Füzuli, Cəbrayıl, Zəngilan, Şuşa və Hadrut uğrunda gedən döyüşlərdə igidlik göstərib, şücaəti ilə yadda qalıb.

Ömrü mənalı, özü də Vətənə xidmətdə yaşamaq hər kəsə nəsib olmur. Qocaman həmkarımız təqaüddə olmasına baxmayaraq bu gün də Şəki Şəhər-Rayon Polis Şöbəsi rəhbərliyi tərəfindən keçirilən maarifləndirmə tədbirlərində fəal iştirak edir, gənclərlə təcrübəsini bölüşür.

**Redaksiyadan:** *Yüzü haqlamağa bir qərinədən az qalıb, Vaqif müəllim. Həyatda nəyi qazanmısınız, nəyi itirmisiniz o sizə bəllidir. Ancaq sizin kimi dəyərli insanlarla bir sırada addımlamağımız, həmsöhbət olmağımız bizim əsl qazancımızdır. Ömrünüzün qalan illərini bundan sonra da bax beləcə, ağrısız, acısız və gülərüz yaşamaq sizə ən böyük arzumuzdur.*

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# Xeyli sayda silah-sursat aşkar edilib



**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə tədbirlər davam etdirilir.**

Belə ki, bugünlərdə Minatəmizləmə Agentliyinin əməkdaşları ilə birgə Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər zamanı rayonun işğaldan azad edilmiş ərazilərindəki tərk edilmiş hərbi mövqelərdən 7 ədəd avtomat, 1 ədəd pulemyot, 1 ədəd “Foqot” qurğusu, 35 ədəd müxtəlif növ qumbara, 30 ədəd müxtəlif növ mərmi və 4850 ədəd müxtəlif çaplı güllələr və digər döyüş sursatları aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki hesablarına vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında əməliyyatlar həyata keçirilib

**Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, kultivasiyası, sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyatlar həyata keçirilib.**

Belə ki, Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Lənkəran şəhərində həyata keçirdikləri əməliyyatlar zamanı həmin bölgədə narkotik vasitə və psixotrop maddələrin, yəni "patı" adlandırılan metamfetaminin satışı ilə məşğul olan əvvəllər məhkum olunmuş şəxslər – Emil İbrahimov, Ceyhun Əliyev, Tofiq Rəhimov və Bəxtiyar Nəcəfov saxlanılıblar. Onların üzərinə və Lənkəran şəhərində yerləşən evlərinə baxış zamanı 107 qram heroin, həşiş, metamfetamin və elektron tərəzilər aşkar olunaraq götürülüb. Bu şəxslər ifadələrində Lənkəran şəhəri və ətraf rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olduqlarını etiraf ediblər.




İdarə əməkdaşlarının paytaxtın Nəsimi rayonunda həyata keçirdikləri əməliyyat zamanı isə sosial şəbəkələrdə narkotik vasitə və psixotrop maddələrin, eləcə də, narkotik tərkibli həblərin onlayn satışı ilə məşğul olan Fətəli Həsənli saxlanılıb. Onun üzərinə baxış keçirilən zaman 27 qramdan artıq yüksək təsiredici xassəyə malik narkotik vasitə kokain, psixotrop maddə metamfetamin, eləcə də, 476 ədəd satışı qadağan olunan ekstazi və metadon həbləri aşkar edilib. Əməliyyat zamanı həmçinin Fətəli Həsənlinin üzərindən narkotik vasitələrin onlayn satışı zamanı pul dövriyyəsində istifadə etdiyi 2 ədəd plastik kart da polislər tərəfindən aşkar olunaraq götürülüb.

Baş İdarə əməkdaşlarının paytaxtın Nərimanov və Nizami rayonlarında həyata keçirdikləri növbəti əməliyyatlar zamanı sosial şəbəkə istifadəçiləri arasında narkotik vasitələrin satışını təşkil edən Anar Gərayzadə və Tahir Şirinov tutulublar. Anar Gərayzadənin üzərindən və Nərimanov rayonunda yaşadığı mənzilindən ümumilikdə 616 qram heroin, metamfetamin, elektron tərəzi, Tahir Şirinovdan isə çəkisi 540 qram olan eyni adlı narkotik vasitə və psixotrop maddələr, həmçinin, elektron tərəzi aşkar edilərək istintaqa təqdim olunub.

Baş İdarə əməkdaşlarının Sabunçu rayonu ərazisində həyata keçirdikləri sonuncu əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş Eduard Hüseynov narkotik vasitələrin qanunsuz kultivasiyası ilə məşğul olduğu üçün saxlanılıb. Onun Maştağa qəsəbəsindəki evinin həyətinə baxış zamanı çəkisi 11 kiloqram olan 54 ədəd çətənə kolu və 4 kiloqram qurudulmuş marixuana aşkar edilib. Eduard Hüseynov ifadəsində narkotik tərkibli bitkiləri satmaq məqsədi ilə kultivasiya etdiyini bildirib.

Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 6 kiloqrama yaxın narkotik vasitə və psixotrop maddə, 495 ədəd narkotik tərkibli həb və 11 kiloqram kultivasiya edilən çətənə kolu qanunsuz dövriyyədən çıxarılıb.

Həyata keçirilən sonuncu əməliyyatların bir neçəsi Baş İdarənin sosial şəbəkələrdəki səhifələrinə ayrı-ayrı vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında reallaşıb.

*Anar Qafarov,*
*polis mayoru*

---

**Xətai RPİ 37-ci PŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Salyan rayon sakini H.Nəcəfov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 400 qram heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nərimanov RPİ 18-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 7-də paytaxtdakı restoranların birindən 10.000 manat dəyərində 2 ədəd kondisioner mühərrikini oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri A.Zeynalov və A.Qasımlı saxlanılmışlar. Şəxsi axtarış zamanı onlardan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Abşeron RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Hökməli kənd sakini, əvvəllər məhkum olunmuş M.Babayevdən heroin, metamfetamin, qundağı və lüləsi kəsilmiş "Fraun" markalı ov tüfəngi və 7 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**İyulun 26-da Yasamal RPİnin 27-ci Polis Bölməsinə** müraciət edən Göyçay rayon sakini Ş.Qafarova cari il fevral ayının 28-də oğlu, şəhid Kənan Qafarovun bank kartından 3960 manatın çıxarılaraq oğurlandığını bildirib.

Polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Göyçay rayon sakini M.Qafarov müəyyən edilərək saxlanılmışdır.




◆◆◆

**Qaradağ RPİ 10-cu PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 15-də Qobu Park yaşayış kompleksində yaşayan A.Muradovanın 1900 manatını quldurluq yolu ilə almaqda şübhəli bilinən Lökbatan qəsəbə sakini H.Abdullayev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Nizami (Gəncə) Rayon Polis İdarəsinə** iyulun 24-də Gəncə şəhər sakini Ş.Tağıyevin bank hesabından 920 manatın oğurlanması barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş M.Nağıyev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini E.Ağayev saxlanılmışdır. Ondan 1,1 kiloqram tiryək götürülmüşdür.

◆◆◆

**Şamaxı Rayon Polis Şöbəsinə** cari ilin iyun ayı ərzində Avaxıl kəndi ərazisindəki istirahət mərkəzindən 6000 manat dəyərində tikinti materiallarının oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən rayon sakinləri N.Cəbiyev, V.Fətəliyev, B.Orucov, K.Kərimov, S.Kərimov və Ə.Səmədov müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Suraxanı RPİ 32-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində iyulun 23-də Qaraçuxur qəsəbəsindəki avtomobil təmiri sexlərinin birinin qarşısından 6 ədəd radiator, 2 ədəd mühərrik bloku və 1 ədəd mühərrik ətək bloku oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini P.Allahverdiyev saxlanılmışdır.

◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Cəlilabad rayon sakini A.Quliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan marixuana aşkar edilmişdir. Polis əməkdaşları tərəfindən narkotik vasitəni ona satmaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş V.Qədirov da müəyyən edilərək saxlanılmışdır. Onun Arbatan kəndindəki yaşadığı evin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 9 ədəd çətənə kolu və 15,3 kiloqramdan artıq çəkidə qurudulmuş marixuana da aşkar edilərək götürülmüşdür.

---

# Duel - aşkar cinayət

## Nəyə görə ölkəmizdə duel ənənəsi yayılmadı?

*Əvvəli ötən sayımızda.*

1547-ci ildə Avropada son rəsmi duel baş tutub. O vaxtdan dueldə "şərəfin müdafiə edilməsi" cinayət elan edilsə də, sonrakı əsrlərdə şəxsi mübahisələrin silahla həll edilməsi hallarına rast gəlinirdi.

Maraqlıdır, Çar Rusiyasının tərkibində olan Azərbaycanda "şərəfini qorumaq zərurəti yarananda", tərəflər duel variantına müraciət edirdimi?

Ümumiyyətlə, həmin dövrlərdə məhkəmələrə rəsmi şikayət verməklə bərabər, qeyri-qanuni olmasına baxmayaraq, avropalı yuxarı siniflər tərəfindən məqbul görünən duelə çağırmaq təcrübəsi qafqazlılara tanış idi. Azərbaycanda isə vəziyyət bir qədər fərqliydi - duel geniş yayılmamışdır.



Bunun bir neçə səbəbi varıdı. Əvvəla duel tarixi yaranma və inkişaf meylinə görə hərbçi-zadəganlar arasında başlamışdı, onlar arasında populyar idi. Çar Rusiyası isə azərbaycanlıları hərb sənətindən uzaq tutmağa çalışırdı, buna görə də azərbaycanlı gənclər ilkin "qaynaqdan" məhrum olmuşdular. Təsadüfi deyil ki, çar hərbi məktəbi bitirən soydaşlarımızın sayı barmaqla sayılacaq qədər azdır.

Digər tərəfdən, XIX əsrdə Azərbaycanda geniş maarifpərvər hərəkat başlamışdı, xaricdə təhsil alıb ölkəsinə qayıdanlar inteligent təbəqəni təşkil edir və mübahisələrin məhkəmələr yolu ilə həllini müdafiə edirdilər. Təhsilsiz camaat isə,- hansı ki, onlar mütləq əksəriyyəti təşkil edirdi – yuxarı sinif arasında məşhur olan "ölüm-qalım" oyununa qoşulmadı. Çox güman buna müsəlman olaraq, "canı verən Allah, onu alan da Allahdır" prizmasından baxdılar. Yəni birinin digərini vurub öldürməsini "Allahın hökmü" saymadılar. Ancaq bu o demək deyil ki, "dəb"ə uyan hansısa bəylər arasında belə hallar heç baş verməmişdir - tarixdə istisnalara rast gəlinir.

Dünyada isə duel Birinci Dünya Müharibəsi dövründə tamamilə yox oldu.

*Hazırladı: R.Mehtiyev*

---

# "Xaşxaş-2021" tədbirləri davam etdirilir



Şəmkir RPŞ-nin əməkdaşları Bayramlı kənd sakini S.Əliyevaya məxsus həyətyanı sahədən 60 ədəd, Lənkəran ŞRPŞ-nin əməkdaşları Kərgələn kənd sakini Ə.Əsgərova məxsus həyətyanı sahədən 6 ədəd, Göygöl RPŞ-nin əməkdaşları şəhər sakini B.Rzayevə məxsus həyətyanı sahədən 51 ədəd, Ağcabədi RPŞ-nin əməkdaşları Kəhrizli kənd sakini N.Nəsirova məxsus həyətyanı sahədən 27 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, Neftçala RPŞ-nin əməkdaşları Həsənabad qəsəbə sakini E.Əsgərova məxsus həyətyanı sahədən 4 ədəd çətənə kolu və 4 kiloqram marixuana aşkar edərək götürmüşlər.

Qubadlı RPŞ və DSX-nin əməkdaşları tərəfindən rayonun Qədili kəndi ərazisində çəkisi 5 tondan artıq 7982 ədəd, Qusar RPŞ-nin əməkdaşları tərəfindən Zindan Muruq kəndi ərazisində çəkisi 1 ton 420 kiloqram olan 722 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

---

## İyul ayının 21-dən 27-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 356 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 25 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 157, o cümlədən borclu şəxs qismində axtarışda olan 100 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 237 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik